Xocalı dəhşətlərini gözləri ilə görən və o müdhiş gecədən "salamat" çıxan nəslin sıraları seyrəlməkdədir. Uzun illər Azərbaycan mətbuatında çalışmış, Qarabağın qara günlərində qələmini silaha çevirənlərdən biri də "Xocalının səsi" qəzetinin redaktoru, şair Qasım Qırxqızlı idi (Qəzetin ilk redaktoru təcrübəli jurnalist, əvvəllər uzun müddət Ağcabədi rayonunda nəşr olunan "Sürət" qəzetinin redaktoru işləmiş, mərhum Sərdar Mehdiyev olmuşdu). Bu ayrılığın həsrətini nəinki yaralı qəlbində, həm də əməkdaşları didərgin salınan, redaksiyasının yeri-yurdu bilinməyən, məcburi köçkün qəzeti "Xocalının səsi"ndə yaşatdı, sonrakı nəsillərin yaddaşına yazdı. Yurd nisgilli ürəkləri dayanan ağsaqqal həmkarlarımızın yaratdığı və yaşatdıqları qəzetin o zamankı kollektivi də həmin müsibətlərin şahidinə çevrilmişdilər. Amma Xocalıdan qopan harayları, nifrinləri Bakıda eşidilmirdi. Nə yaxşı ki, paytaxtda, ictimaiyyətdə maraqlı yazıları, ən əsası isə, doğru-dürüst informasiyaları ilə seçilən, nə az-nə çox, düz 500 min tirajla oxucularına çatan, müstəqil, azad, demokratik mətbuatın qaranquşu - "Səhər" var idi. Heç kimə sirr deyil ki, "Səhər"in baş redaktoru Məzahir Süleymanzadənin və qəzetin əməkdaşlarının (Hidayət Elvüsal, Süleyman Qaradağlı, Çingiz Ələsgər, Rizvan Hilaloğlu, Nəsimi Həbiboğlu, Sənubər, Elşad Qoca və s.) o qanlı-qadalı günlərdə yaralı xocalılıların yanında olmaları, əsl həqiqətin qəzet səhifələrinə çıxarılmasına imkan vermişdi. Hazırda "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri, o zaman hərbi müxbir kimi Qarabağda, ön cəbhədə olan hərbi jurnalist Şamil Sabiroğlunun "Səhər"ə göndərdiyi məlumatlar geniş-əks səda verirdi. Təəssüf ki, "Səhər"in verdiyi, həqiqəti ifadə edən yazıların əksinə çıxanlar da tapılırdı...




# Xocalının qanla açılan qara "Səhər"i

## *"Xocalının səsi" batmışdı, amma...*

O ağır günlərdə "Xocalının səsi" "Səhər"in müəyyən saylarında xüsusi buraxılışlara çevrildi və yüksək tirajla nəşr edildi ki, bu da faciənin geniş oxucu auditoriyasına çıxarılmasında mühüm təşəbbüs idi.

"Səhər"in 29 fevral 1992-ci il tarixli sayında qəzetin baş redaktoru Məzahir Səhərin imzası ilə dərc edilmiş

### "Həqiqət acı olsa da..."

məqaləsindən oxuyuruq: "...Mətbu orqanların bəzilərinin isə bir gün öncəki nömrələrindən oxuyuruq: "Adamlar canlarını qurtararaq, zəhmətlə qazandıqları var-yoxlarını burada qoyaraq şəhərdən qaçdılar. Şahidlərin dediyinə görə, sakinlərin bir çoxu üçün fevralın 26-sı ölüm günü oldu. Qadınlar, uşaqlar, qocalar xilas olmaq üçün Ağdama can atırdılar. Lakin yolda - Naxçıvanik erməni kəndinin yaxınlığında onlar yenidən güllələrə tuş oldular. Burada həlak olanların cəsədləri faciənin baş verdiyi yerdə qaldı..."

Məzahir Səhərin imzası ilə dərc edilmiş daha bir informasiyaya diqqət yetirək: "Bu yazıda sovet ordusunun 366-cı motoatıcı polkuna komandirlik etmiş polkovnik Y. Zarviqarovun və onun əsgərlərinin Xocalı soyqırımında iştirakından bəhs edilir. Dəhşətli qırğından dərhal sonra təkzibedilməz faktlar əsasında yazdığım məqalə bir sıra xarici dillərə də tərcümə olundu".

### "Bu zülmü görmürsənmi, Allah?!"

sərlövhəli yazıda Xocalıdan, daha doğrusu, o qanlı, müdhiş gecədən canlarını "salamat" qurtarmış və respublika klinik xəstəxanasında müalicə alan 27 nəfər azərbaycanlının müsibətindən bəhs olunur. Dəhşətləri xatırlamağa, dilə gətirməyə belə taqətsiz olsalar da, "Səhər"in əməkdaşları onların dediklərini qəzetin 4 mart 1992-ci il tarixli sayında dərc etdiriblər: "Məmmədov Cəmil Cümşüd oğlu: "Tanklar və BTR-lərlə şəhərə daxil olaraq evlərimizi darmadağın etdilər. Arxalarınca isə ermənilər gəlirdi. 5 yaşında nəvəmi götürüb meşəyə qaçdım. Bir sutka qarın altında qalmışıq. Körpə donmamaqdan ötrü paltarlarımı soyunub uşağı bükmüşdüm. Artıq taqətim qalmamışdı. Naxçıvanik kəndinə yollanıb ermənilərə yalvardım ki, nəvəmə rəhm etsinlər. Məni təhqir edib komendanta təhvil verdilər. O isə əmr verdi ki, bizi tövləyə salsınlar. 4 gün tövlədə qaldıq. Burada çoxlu qız, qadın, körpə var idi. Sonra bizi Əsgərana gətirdilər. Arvadım, qızım, yeznəm burada idilər. Boyeviklər dırnaqlarımı çıxartdılar. Neqrlər isə göyə atılıb üzümə təpik vururdular... Çox işgəncələrdən sonra məni ermənilərlə dəyişdirdilər. Nəvəm, arvadım, qızım, yeznəmdən heç bir xəbər yoxdur. 30 nəfər omonçumuzu işgəncə verə-verə öldürdülər".





### "Uşaqlar ittiham edirlər"

1992-ci ilin qışı Qarabağa qarlı-boranlı, qanlı-qadalı gəlmişdi. Xocalıda baş verən müdhiş və dəhşətli soyqırımı o ilin yazını da gecikdirmişdi. Mart ayının 11-də "Səhər" qəzeti matəm libasını soyuna bilmirdi. Elə həmin tarixli sayında yarım milyonluq oxucu auditoriyasına çıxarılan xəbərlər və reportajlar damarlarda qanı dondururdu...

"Uşaqlar ittiham edirlər" sərlövhəli yazıda respublika Təcili Yardım Xəstəxanasında müalicə olunan Xocalı uşaqlarından müsahibə alınıb. 5 yaşlı Ramil Həsənov deyir ki, ermənilərin əlindən qaçıb bir neçə gün meşədə ac-susuz və yarıçılpaq qalıblar. 4 yaşlı Vüsalə ilə 1 yaşlı Xəyalənin anası Sənəm Abdullayevanın da söylədikləri dəhşətdir: "Bir gün meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana gətirdilər. Anam, atam və 16 yaşlı bacımı meşədə güllələdilər. Mənə dəhşətli işgəncələr verdilər. Sonra bizi döşəməsinə su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaları üçün uşaqları bir gün qollarımda saxlamışdım".

On aylıq Salatın Əhmədovanın anasının dediklərindən:

- Ermənilər atəş aça-aça meşəyə yaxınlaşırdı. Bir gün ac qalan Salatınımı sinəmə sıxdım ki, murdarların əlinə keçməsin. Bizi tutub erməni kəndinə gətirdilər. Dörd saatdan sonra isə uşaq gözlərini açdı...

### "Nə idi günahım?.."

...Bu da 18 yaşlı Xədicə Abdullayevanın son müsibəti. Xocalısından qaçanda elə bilirdi ki, canını o murdarların əlindən xilas edəcək. Qarşıda onu qarlı-boranlı, fevralın şaxtalı, tufanlı gecəsi, meşə və sonra nə gözləyirdi hələ bilmirdi.

Sonra qara tale, iki ayaqsız həyat... Xədicə və onun ailəsi də fevralın 25-i gecə Xocalıdan uzaqlaşmaq üçün ayaqyalın-başaçıq meşəyə qaçmışdı. Ata-anası və on altı yaşlı bacısı şaxtaya tab gətirmədilər...

"Səhər"in 13 mart 1992-ci il tarixli sayında "Nə idi günahım, Allah?" yazısını da həyəcansız oxumaq mümkün deyil. Xəstəxanada hər iki ayağı kəsilmiş Xədicənin ürəkdağlayan sözlərindən boylanan haraylar bu yazıda sanki qulaq batırır.

Həmin gecə doğmalarını itirmiş Xədicəgilin dəstəsi erməni quldurlarının əlinə keçir. Daşnakların əmrlərinə baş əyməyən qızcığazı cəzalandırmaq üçün dizə qədər su doldurulmuş zirzəmidə bir gün ac-susuz saxlayırlar. Daşnak tör-töküntüsünə dəyişdirilən, gözlərini Bakıda, Təcili Yardım Xəstəxanasında açıb özünü ayaqsız görən Xədicənin arzu və istəklərinin üstündən düşmən qara xətt çəkmişdi.

### Qara örpəkli qız... Ümid şamı və Novruz xonçası...

"Neçə ildi ki, Novruzu dərd-ələmlə qarşılayırıq. Xonça tutub üstündə ümid şamı yandırırıq. Toylarımız, bayramlarımız qəm içində keçib gedir. Rasimin (məşhur fotoreportyor Rasim Sadıqov) çəkdiyi bu şəkildən matəm və bayram havası duyulur. Bir el qızı xonça tutub, şam yandırıb, Novruzu qarşılayır. Başında isə... qara örpək..."

Bu qəm libaslı cümlələr də "Səhər"in Novruz ovqatlı, xonça sovqatlı 21 mart 1992-ci il tarixli sayında Hidayət Elvüsalın qələmə aldığı "Bu bayram axşamı" yazısındandır. Kədər notlu bu yazı Xocalının qara açılan qanlı səhəri kimi, oxucusunu həmin ab-havaya köklədə də, sonluqda müəllif nikbin notlarla Azərbaycan gözəlinin əli ilə ümid şamı yandırır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***